

## Dövlət müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir! 25

Bu gün ölkə ərazisində elə bir bölgə, rayon və kənd yoxdur ki, orada sürətli inkişaf olmasın. Bu nailiyyətdə icra edilən regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının rolu az deyil. Bu inkişaf dağlıq Şirvan iqtisadi rayonuna daxil olan Ağsuda da açıq-aşkar hiss olunur.



# Müstəqilliyin ağ günə çıxardığı Ağsu

Ağsunun cənub hissəsində, təxminən 3 kilometrlik məsafədə yerləşmiş XVIII əsrin yadigarı olan qədim şəhərin tarixinə nəzər yetirdikdə görürük ki, bu məkan ümumilikdə hələ neçə yüz illər bundan əvvəl şəhərçilik ənənələri ilə seçilib. Burada aparılan arxeoloji qazıntılar zamanı aşkarlanan qədim Ağsu şəhərinin qalıqları da bunu təsdiq edir. Abbasqulu Ağa Bakıxanov “Gülüstani-İrəm” əsərində yazıb ki, Nadir şah tərəfindən hicri 1148-ci (1735) ilin may ayında Şamaxı şəhərinin 4 ağaclığında (37 km), mövqe etibarilə çox əlverişli olan Ağsu adlı yerdə yeni şəhərin əsası qoyulub. Ağsu şəhərinin adı bəzi tarixi mənbələrdə “Yeni Şamaxı” kimi də göstərilir. Bu, həmin dövrdə Şamaxı əhalisinin Ağsuya köçürülməsi ilə bağlıdır. XVIII əsrdə mövcud olmuş şəhər öz adını “Ağsu çayı”ndan götürməklə mənbələrdə daha çox Ağsu kimi göstərilir.

Rus səyyahı S.Bronevski həmin şəhəri belə təsvir edib: “Şəhərin ətrafına qala divarları çəkilmişdi. Qalanın dördkünc və dairəvi bürcləri var idi. Qala divarlarının qarşısında dərin xəndək qazılmış, yaşayış binalarının alt hissəsi zirzəmilərdən ibarətdir. Binaların üst hissəsi uçub zirzəmiyə tökülmüşdür. Buradakı çalalar zirzəmilərin qalıqlarıdır. Şəhərdə yaşayış binaları sıx yerləşmişdir. Küçələr ensiz olduğundan arabalarla hərəkət etmək mümkün deyildi. Şübhəsiz, şəhərin mərkəzi küçələri nisbətən enli olmuşdur”.

1767-ci ildə Quba xanı Fətəli xan Şəki xanı Hüseyn xanla birləşərək, iki tərəfdən Şamaxı şəhərini mühasirəyə alırlar. Məhəmməd Səid xanla Ağası xan isə müqavimət göstərmək iqtidarında olmadıqlarından məğlub olublar. Nəticədə, mərkəz yenidən Ağsuya köçürülüb. Hər iki xan şəhərə öz nümayəndəsini təyin etdi. Şirvanın Sərdərin və Həsən mahalları Şəki xanlığına, qalan hissəsi isə Quba xanlığına birləşdirilib.

1769-cu ilin iyulunda Quba xanı Fətəli Xan tərəfindən Ağsu şəhəri dağıdılaraq əhalisi Şamaxıya köçürülüb. Bəzi tarixi mənbələrə əsasən, az vaxt ərzində bütün Ağsu əhalisi Şamaxıda yerləşdirilib.

Səyyah Marşal Fon Biberşteyn, rus səyyahı S.Bronevski və digər müəlliflərin yazılı məlumatlarında göstərilir ki, Fətəli xan əhalini Ağsudan Şamaxıya zorla köçürdüyü zaman onların sayı o qədər azalmışdı ki, şəhərin bir sıra küçələri tamamilə boş qalmışdı.

Ağsu rayonu 8 oktyabr 1943-cü ildə təşkil edilib. Rayonun mərkəzi Ağsu 1967-ci ilə qədər şəhər tipli qəsəbə, həmin ildə şəhər statusu alıb.

Coğrafi mövqeyinə görə Ağsu rayonu Şirvan düzündə və Böyük Qafqazın ətəklərində yerləşir. 16 kənd, 3 ərazi dairəsi dağlıq zonadadır.

Rayonun ərazisindən 2 çay - Girdiman, Ağsuçay və onların qolları - Ağdarçay və Nazirçay keçir. Qərbdə Kükəş qobusu (Kür sellər oylağı) və Cavanşir gölü, cənubda Yuxarı Şirvan kanalı, onun Ağsu qolu yerləşir.

Ağsu kənd təsərrüfatı rayonu olmaqla iqtisadiyyatında heyvandarlıq, taxılçılıq, pambıqçılıq, meyvə və tərəvəzçilik mühüm yer tutur. Ərazisinin 75,2 faizi və ya 76 min 742 hektarı kənd təsərrüfatına yararlı torpaqlardır. Onun 46,3 faizini və ya 35 min 550 hektarını əkin yeri təşkil edir.

Ümummilli lider Heydər Əliyevin prezidentliyi dövründə aparılan aqrar islahatlar nəticəsində rayonda 43 min 892 nəfər mülkiyyətçi 36 min 184 hektar əkin yeri və çoxillik əkinlər altında olan torpaqları əvəzsiz olaraq pay kimi alıb.

Rayonda 68 ümumtəhsil məktəbi, 5 məktəbdənkənar və 8 məktəbəqədər müəssisə var. 2 xəstəxana - rayon mərkəzi xəstəxanası və Kalva kənd sahə xəstəxanası, 15 həkim və 19 tibb məntəqəsində əhaliyə səhiyyə xidməti göstərir.

Ağsuda 9 mədəniyyət sarayı və evləri, 38 kitabxana, 1 uşaq musiqi məktəbi, uşaq-gənclər bədii yaradıcılıq mərkəzi, Heydər Əlyev Mərkəzi və tarix-diyarşünaslıq muzeyi var. Əhalinin asudə vaxtının səmərəli təşkili üçün Heydər Parkı, Ağsu şəhər Mədəniyyət və İstirahət Parkı, Heydər Əliyev Seyrəngahı salınıb. 3000 yerlik Ağsu şəhər stadionu tikilib istifadəyə verilib.

Ümumilikdə isə Azərbaycanın dövlət müstəqilliyini bərpa edən sonrakı dövr Ağsu və ağsulular üçün də düşərli olub. İllərlə baxımsız vəziyyətdə olan yollar, küçə və prospektlərin, miskin görkəmə düşən çoxmərtəbəli binaların simasını tamamilə dəyişib. Rayonun 25 il əvvəlki vəziyyəti ilə hazırkı görkəmi müqayisəyəgəlməzdir.

Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyevlə söhbət zamanı dedi ki, Prezident İlham Əliyevin 11 oktyabr 2016-cı il tarixdə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında imzaladığı sərəncam hər birimizin ürəyindən xəbər verdi. Axı, dünyada müstəqillikdən, azadlıqdan şirin, müqəddəs bir şey yoxdur. Tarixə nəzər yetirsək görərik ki, mənliyini dərk edən, özünə hörmətlə yanaşan hər bir xalq hansı yolla olursa-olsun bütövlüyünü, müqəddəratını məhz özünün müəyyənləşdirməsi üçün çalışır, mücadilə edir. Xoşbəxtlikdən arzusunda olduğu müstəqilliyini yenidən bərpa etdi. Çoxumuz həmin günlərin və illərin şahidi olduğumuz üçün hər şey yaxşı yadımızdadır. İlk illərdə Qarabağda gedən döyüşlərdə, digər tərəfdən isə yerli hakimiyyətdə olanların səriştəsizliyi, işbilməzliyi ciddi problemlər yaratdı. Lakin ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtması müstəqilliyimizin təminatına çevrildi.

Ondan sonra Prezident İlham Əliyevin rəhbərliyi altında isə müstəqilliyimizin daha da möhkəmlənməsi, ölkənin iqtisadi qüdrətinin artması, xarici əlaqələrimizin genişləndirilməsi istiqamətində əvəzi olmayan xidmətlər göstərildi. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına start verilməsi, bu məqsədlə dövlətin hərtərəfli dəstəyini əsirgəməməsi ərzaq təhlükəsizliyimizin təmin olunması ilə bərabər, yüz minlərlə insanın yeni iş yeri tapmasına təkan verdi. Beləliklə də bölgələrdən iri şəhərlərə, o cümlədən də soydaşlarımızın daha çox axın etdikləri Rusiya Federasiyasına gedənlərin sayı azaldı.

Ümummilli lider hər zaman Ağsuya və ağsululara qayğı ilə yanaşıb. Ulu öndər Heydər Əliyev hələ 1981-ci ildə Ağsuda olarkən demişdi: *“Ağsu respublikanın qabaqcıl rayonları səviyyəsinə çıxmalıdır. Bunun üçün imkan və şərait vardır”.* Ulu öndərin həmin arzusu bu gün reallığa, həqiqətə çevrilib.

İlham Əliyev Prezident seçildikdən sonra 5 dəfə Ağsu şəhərinə səfər edib. 2006-cı il 30 iyundan ilk səfər zamanı ölkə rəhbəri Ağsu şəhərində ümummilli lider Heydər Əliyevin adını daşıyan mərkəzi meydanda rayon sakinləri ilə görüş keçirərək onları narahat edən məsələləri dinləyib. Bundan sonra Ağsuya müxtəlif layihələrin icrası məqsədilə sərəncamlar əsasında ayrılan maliyyə vəsaitinin həcmi xeyli artırılıb. 2009-cu ilin 29 oktyabr tarixində reallaşan ikinci səfərin proqramı isə xeyli zəngin olub:

- *Heydər parkında aparılmış yenidənqurma və abadlıq işləri ilə tanışlıq*
- *Heydər Əliyev Mərkəzinin açılışı*
- *Ağsu şəhər stadionunun təməlqoyması*
- *Uşaq-gənclər bədii yaradıcılıq mərkəzinin tikinti layihəsi ilə tanışlıq*
- *“Az-Granata” MMC-nin şirə və şərab emalı zavodunda tikinti işləri ilə tanışlıq*
- *“Qəhrəmanlar” parkı ilə tanışlıq*

Üstündən cəmi iki il keçəndən sonra - Prezidentin 30 oktyabr 2011-ci il tarixli səfərində isə real nəticələr ortaya qoyulub. Səfər proqramı daha da zənginləşib:

- *Ağsu Regional Qaz İstismar Sahəsinin inzibati binası ilə tanışlıq*
- *Ağsu şəhər mədəniyyət və istirahət parkında yaradılmış şəraitlə tanışlıq*
- *Çörək zavodunun işə salınması*
- *Yeni inşa edilmiş 3000 yerlik şəhər stadionunun açılışı*
- *Uşaq-gənclər bədii yaradıcılıq mərkəzinin açılışı*
- *“Az-Granata” MMC-nin şirə və şərab emalı zavodunun işə salınması.*

Ölkə rəhbərinin 17 sentyabr 2015-ci il tarixli səfər proqramı da zənginliyi ilə seçilir:



- *Yenidənqurma işlərindən sonra Şahmat parkı ilə tanışlıq*
- *Yenidənqurma işlərindən sonra şahmat məktəbi ilə tanışlıq*
- *Ağsuya içməli suyun verilməsi*
- *Yeni Azərbaycan Partiyasının rayon təşkilatının yeni inzibati binasının açılışı*
- *Ağsu İdman Kompleksinin açılışı*
- *Ağsu Rayon Mərkəzi Xəstəxanasının açılışı*

Prezident İlham Əliyevin bu ilin aprel ayının 29-da Ağsuya reallaşdırdığı növbəti səfəri də unudulmaz xatirəyə çevrilib:

- *Bakı-Şamaxı-Yevlax avtomobil yolunun Muğanlı-Yevlax mənzilinin 115 kilometrlik hissəsində yenidənqurma işləri ilə tanışlıq*
- *Bakı-Şamaxı-Yevlax avtomobil yolunun Muğanlı-Yevlax mənzilinin 115 kilometrlik hissəsinin açılışı.*



2016-cı il də əvvəldən Ağsu üçün uğurlu başlayıb. Xüsusən də kənd təsərrüfatına bağlı ənənəvi sahələrin inkişaf etdirilməsi istiqamətində atılan addımlar artıq müsbət nəticə verməkdədir.



Hələ ilin əvvəlindən ölkə Prezidenti İlham Əliyev tərəfindən pambıqçılığın inkişaf etdirilməsini mühüm vəzifə kimi qarşıya qoymasından sonra bu çağırışa ağsulular da səs verdilər və rayonda əməli tədbirlərə başlandı. Pambıq əkini məqsədilə 1000 hektarlıq proqnoza qarşı 1100 hektar sahə şumlandı. Yüksək keyfiyyətli toxumun əkilməsi, aqrotexniki qulluğun göstərilməsi də səmərəsini verdi. Hazırda fermerlər pambıq sahələrində hər hektardan ortalama 25-30 sentner pambığın götürülməsinin mümkün olması qənaətindədirlər.

Rayonda “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası da uğurla davam etdirilir. Yeni iş yerlərinin açılması, tikinti, quruculuq və abadlıq işləri diqqət mərkəzində saxlanılır, sosial problemlərin həllinə qayğı göstərilir. Yollar, küçə və meydanlar abadlaşdırılır.

Ağsuda fəaliyyət göstərən “Süsən Aqro” MMC-nin taxılçılıq sahəsində uğurları daha sevindirici olub. Belə ki, müəssisə tərəfindən elm və texniki tərəqqinin son nailiyyətlərinin tətbiqi yüksək məhsul istehsalına gətirib çıxarıb. “Süsən Aqro” MMC 1200 ha taxıl sahəsindən 7206 ton məhsul götürməklə orta hesabla hər hektardan 60 sentner məhsul əldə edib.

İlin əvvəlindən kartof, tərəvəz, bostan, meyvə və bol üzüm məhsulu əldə olunub. Üzüm, meyvə və bəzi yazlıq bitkilərin yığımı hazırda da davam edir. Kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilərək 320 hektar sahədə soya əkilib, 1092 ha ərazidə əkilmiş pambıq sahələrində yığım davam edir. Növbəti mövsüm üçün 1000 hektar sahədə şəkər çuğunduru, 2500 hektar sahədə pambıq əkini planlaşdırılır.

Rayonda sahibkarlığın inkişafı da daim diqqət mərkəzində saxlanılıb və abadlıq-quruculuq işləri davam etdirilir. Ağsu şəhərində 2016-cı ildə də bir sıra keçici obyektlərdə tikinti-quraşdırma işləri aparılıb. Şəhərin M.Ə.Rəsulzadə küçəsində kənd təsərrüfatı idarəsi üçün inzibati bina, “Az-Granata” MMC üçün yeni süzmə sexi və soyuducu anbar tikilib. 140 yerlik “Qərənfil” uşaq bağçası əsaslı təmir olunub.

Hazırda rayonun Qaradağ və Qaravəlli kəndlərində modul tipli sutəmizləyici qurğuların tikintisi, şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün 10 ədəd, hər biri 3 otaqdan ibarət fərdi yaşayış evlərində tikinti - quraşdırma işləri görülür. Şəhərin müxtəlif məhəllələrində tikintisi yarımçıq qalmış sahibkarlıq subyektlərinin başa çatdırılması, binaların fasad hissələrinin müasir tələblərə uyğun üzlənməsi, çoxmənzilli yaşayış binalarında təmir-bərpa işlərinin aparılması istiqamətində işlər davam etdirilir.

Rayonda yeni sənaye zonası yaradılması, çoxmənzilli evlərin inşası, bir çox kəndlərdə modul tipli sutəmizləyici qurğuların tikilməsi üçün layihələrin hazırlanması və həyata keçirilməsi istiqamətində də iş aparılır.

2014-2018-ci illərdə regionların sosial iqtisadi inkişafı ilə əlaqədar olaraq yerli əhəmiyyətli Çaparlı-Cəfərli avtomobil yolu dövlət proqramına salınıb. Artıq həmin avtomobil yolunda təmir işlərinə başlanılıb.

Ümumiyyətlə, 2016-cı ilin 9 ayında fəaliyyətə başlayan yeni və bərpa edilmiş müəssisələrdə, aparılan abadlıq - quruculuq işlərində və digər mövsümi işlərdə 873 nəfər çalışıb ki, onlardan da 709 nəfəri daimi işlə təmin olunanlardır.

Xüsusi mülkiyyətin genişləndirilməsi, sahibkarlığın sürətli inkişafı və əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən dövlət tədbirlərinin nəticəsi olaraq orta aylıq əməkhaqqı 268,5 manat təşkil edib.

“Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, eləcə də ARDNŞ və Ağsu regional qaz istismarı idarələrinin Ağsu xidmət sahəsi qarşısında qoyduğu konkret tapşırıqların icrası məqsədilə tədbirlərin görülməsi davam edir. 2016-cı ilin əvvəlindən istər rayonun qaz təsərrüfatının yenidən qurulması, istərsə də təbii qazın istehlakçılara çatdırılması zamanı yol verilən normadan artıq qaz itkilərinin qarşısının alınması və dəyərinin yığılması sahəsində bir sıra işlər görülüb.

Bütün bunlarla yanaşı, yeni qazlaşmaya da böyük önəm verilir. Cari ilin əvvəlindən başlayaraq ötən dövr ərzində rayonun Qaradağ, Bico, Qəşəd, Cəlayir, Cəfərli, Ləngəbiz, Hacıuşağı kəndlərinin qaz təchizatı təmin edilib.

“Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na əsasən, Dünya Bankı və Azərbaycan hökuməti ilə birgə maliyyələşdirilən “Milli Su Təchizatı və Kanalizasiya xidmətləri üzrə İkinci Layihə” çərçivəsində Ağsu şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması istiqamətində işlərin icrası cari ildə də davam etdirilib. Layihə çərçivəsində Ağsu rayonunda su və kanalizasiya şəbəkəsi tikilib. Su şəbəkəsi üzərində 5500 və kanalizasiya şəbəkəsi üzərində 5300 evə birləşmə quraşdırılıb.

Əhalinin həyat səviyyəsinin yüksəldilməsi və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə aparılan işlər də daim diqqət mərkəzində saxlanılır.

Rayon iqtisadiyyatının daha da yüksəldilməsi, əhalinin sosial problemlərinin həlli, özəl sektorun inkişafına kömək göstərilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, abadlıq-quruculuq işlərinin aparılması, sənaye, tikinti, nəqliyyat və rabitə müəssisələrinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması, rayon ərazisində avtomobil yollarının əsaslı təmiri və körpülərin təmiri istiqamətində tədbirlər davam edir.

İstehsal, xidmət və sosial-mədəni obyeklərin inşasına diqqət artırılacaq, əhalinin enerji daşıyıcıları ilə dayanıqlı təminatının ödənilməsi məqsədi ilə, həmçinin iri fermer təsərrüfatlarının yaradılması və əkinə yararlı torpaqların əkin dövriyyəsinə daxil edilməsi istiqamətində zəruri tədbirlər həyata keçiriləcək.

Kənd yaşayış məntəqələrinin qazlaşdırılması tədbirləri, yaşayış məntəqələrinin və əkin sahələrinin sel sularından mühafizəsini təmin etmək məqsədilə Ağsuçay çayında sahilbərkitmə işlərinin aparılması diqqət mərkəzində saxlanılır.

Ağsuda təhsilin səviyyəsinin yüksəldilməsi məsələsinə də xüsusi diqqət yetirilir. İlin əvvəlindən təhsil müəssisələrinin əsaslı təmiri sahəsində işlər davam etdirilib. Padar kənd ümumi orta məktəbinin binasında 51min manatlıq əsaslı, Yenilik, Ağabəyli, Cəfərli, Hacıuşağı, Bəyimli, Suraxanı kənd ümumi orta məktəblərinin binasında ümumilikdə 156 min manatlıq cari təmir işləri aparılıb. 2016-cı ildə ali məktəbə qəbul üçün sənəd vermiş 245 nəfər məzunun 108 nəfəri qəbul imtahanlarında keçid balından çox bal toplayıblar. Onların 106 nəfəri tələbə adını qazanıb. Qəbul imtahanlarında iştirak etmiş məzunlarının ali məktəblərə qəbul olma faizində əvvəlki illərlə müqayisədə artım müşahidə edilib.

Bu il Ağsu Rayon Mərkəzi Xəstəxanasının yeni, müasir avadanlıqlarla təmin edilmiş binası da əhalinin istifadəsinə verilib. Həmin sağlamlıq ocağının açılışında iştirak edən Prezident İlham Əliyev demişdir: “Təmiz ekoloji vəziyyət, ekologiya tədbirləri də insanların sağlamlığı üçün çox vacibdir və bu da Ağsuda var. Çünki Ağsunun gözəl təbiəti, havası, əlbəttə ki, insanın sağlamlığına gözəl şərait yaradır.”

***Əli SƏLİMOV,***
***“Azərbaycan”***









